# KƏLBƏCƏR: QAZANILAN UĞURLAR DÖVLƏT QAYĞISININ TƏZAHÜRÜDÜR

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı geniş nitqindən irəli gələn vəzifələr Kəlbəcər Rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət idarə və təşkilatlarının rəhbərlərinin iştirakı ilə keçirilən iclasda ətraflı müzakirə olunmuşdur. İclası giriş sözü ilə açan **Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Eldəniz Mehtiyev** rayonun sosial-iqtisadi uğurlarından ətraflı məlumat vermişdir.

O qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz möhtəşəm nailiyyətlərə imza atmış, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilmişdir. 2015-ci ilin ötən 6 ayında qazanılmış uğurlar, qarşıya qoyulmuş bütün vəzifələrin müvəffəqiyyətlə həll olunması Azərbaycanın kompleks inkişafının uğurla davam etdiyini bir daha təsdiqləyir. Bütün bunların təməlində dayanan isə ölkə başçısı tərəfindən düşünülmüş düzgün siyasət, sabitlik, iqtisadi islahatların həyata keçirilməsidir. Bəli, Azərbaycan daim güclənir, iqtisadi, siyasi və hərbi güc toplayır. Azərbaycan bugün Avropa Oyunlarını Olimpiya oyunları səviyyəsində keçirir. Ölkəmizdə birinci Avropa Oyunlarının keçirilməsi tarixi hadisə idi. "Ölkəmiz gücünü və potensialını göstərir" deyən dövlətimizin başçısı bildirdi ki, 21-i qızıl olmaqla 56 medal qazanan idmançılarımız Azərbaycanın həm də idman ölkəsi olduğunu sübut etdilər. Bütün Azərbaycan xalqı kimi, Kəlbəcər rayonunun əhalisi, ictimaiyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin proqram xarakterli nitqini, qarşımıza qoyduğu vəzifələrə dair tezislərini birmənalı olaraq dəstəkləyir. 2015-ci ilin birinci yarısında rayonun kənd təsərrüfatı sahəsində müəyyən nailiyyətlər əldə edilmiş, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi işinə xeyli kömək göstərilmişdir. Rayon üzrə istər iribuynuzlu heyvanlar, istərsə də davarlar üzrə iqtisadi göstəricilər əsasən müsbət olmuş, heyvandarlıq məhsulları istehsalı üzrə tapşırıqlara 101 faiz əməl olunmuşdur. Yarım ildə rayon üzrə 16295 sentner ət, 92980 sentner süd, 3220 sentner yun istehsal olunmuşdur.

Hesabat dövründə məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması, digər sosial problemlərinin həlli istiqamətində xeyli işlər görülmüşdür. "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" və ona sonradan edilmiş Əlavələrə uyğun məcburi köçkünlər üçün qəsəbələrin salınması, yaşayış evlərinin tikilməsi davam etdirilmişdir.

Gəncə şəhəri ərazisində 600 ailəlik qəsəbə tikilərək istifadəyə verilmiş, Hacıkənd qəsəbəsində və digər yerlərdə yaşamış 200-dən çox ailə həmin qəsəbədə yeni evlərə köçürülmüşdür.

Bərdə rayonu və Mingəçevir şəhərində məcburi köçkünlər üçün hündürmərtəbəli yaşayış evləri tikilmişdir. Həmin evlərdən bizim rayondan olan məcburi köçkün ailələrinə də evlər verilməsi nəzərdə tutulmuşdur.

600 ailəlik yeni yaşayış qəsəbəsində tikilmiş 50 yerlik uşaq bağçası Kəlbəcər Rayon İcra Hakimiyyətinin tabeçiliyinə verilmişdir.

1500 ailəlik yeni yaşayış məhəlləsində bir sıra infrastruktur obyektlər tikilmişdir, o cümlədən MTN-nin Kəlbəcər rayon şöbəsi üçün bina tikilmiş və istifadə üçün tam hazır vəziyyətdədir. Digər sosial yönümlü obyektlər tikilir. Həmin qəsəbədə 150 yerlik xeyir-şər mərasimlərini keçirmək üçün bina tikilib və son tamamlanma işləri görülür.

Rayonun daxili imkanları hesabına Gəncə şəhəri Gülüstan qəsəbəsi Gülçülük təsərrüfatı ərazisində fəaliyyət göstərən 55 saylı tam orta məktəb üçün 9 sinif otağından ibarət yeni bina tikilir, binada daxili tamamlanma işləri aparılır.

Məcburi köçkünləri narahat edən işıq, su problemlərinin həlli istiqamətində xeyli işlər görülmüşdür. Goranboy rayonunun Qarasüleymanlı kəndində məcburi köçkünlər üçün 1 ədəd 160 kv-lıq elektrik transformatoru, 1 ədəd ESV-10 və 1 ədəd ESV-8 markalı suartezian nasosu alınaraq istifadəyə verilmişdir.

Goranboy rayonunun Qazanbulaq qəsəbəsində müvəqqəti məskunlaşmış məcburi köçkünlərin su problemini həll etmək üçün 4600 metr uzunluğu 120 mm-lik boru ilə yeni su xətti çəkilib istifadəyə verilmişdir.



Məktəblərdə yeni dərs ilinədək təmir-bərpa işləri görülür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2014-cü il tarixli 4249 saylı Sərəncamı əsasında Abşeron rayonu Xırdalan şəhəri Meşəçilik massivi ərazisində fəaliyyət göstərən 21 saylı tam orta məktəbdə təmir-bərpa işləri davam etdirilir.

Büdcə vəsaiti hesabına iyun ayında rayonun 38, 67, 106, 80, 101, 115 saylı tam orta məktəblərində əsaslı təmir işləri aparılmışdır.

Rayonda fəaliyyət göstərən 98 tam orta və 16 ümumi orta məktəb 2014-2015-ci dərs ilini uğurla başa vurmuşdur. Dərs ilinin sonunda IX sinfi 934, XI sinfi 539 nəfər bitirmişdir. IX sinfin 539 şagirdi (və ya 60 faizi), XI sinfin 508 şagirdi (55,8 faizi) buraxılış imtahanını uğurla başa vurmuşdur.

Kəlbəcər Rayon Mərkəzi Xəstəxanası əsasən Gəncə şəhərində, Göygöl, Samux, Goranboy, Şəmkir və Daşkəsən rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlərə tibbi xidmət göstərir.

Xəstəxananın maddi-texniki təchizatı xeyli möhkəmləndirilmiş, inzibati bina və aptek yeni mebellə, zəruri tibbi avadanlıqlarla (masaj çarpayısı, rentgen aparatı, diş rəfi üçün avadanlıq, xəstə çarpayıları, kondisioner və s.) təchiz olunmuşdur.

Rayon mədəniyyət və turizm şöbəsi əlamətdar tarixi günlərdə, milli bayramlarda məcburi köçkünlər qarşısında konsertlər təşkil etmiş, tarix-diyarşünaslıq muzeyinin və mərkəzləşdirilmiş kitabxana sisteminin fəaliyyətinin yaxşılaşdırılması üçün müəyyən tədbirlər görülmüşdür.

Rayon gənclər və idman idarəsi tərəfindən hesabat dövründə gənclərin asudə vaxtlarının səmərəli keçməsi, gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, gənclər və yeniyetmələr arasında idmanın geniş təbliğ olunması, kütləvi bədən tərbiyəsi tədbirlərinin hazırlanıb keçirilməsi sahəsində xeyli davamlı işlər görülmüşdür.

Dövlət Sosial Müdafiə Fondu Kəlbəcər rayon şöbəsi tərəfindən rayon üzrə 10804 nəfərə, o cümlədən 363 nəfər işləyən, 10579 nəfər işləməyən pensiyaçıya xidmət göstərir. 6 ay ərzində şöbə tərəfindən 109 nəfərə yeni pensiya təyin olunmuşdur. Bunlardan 28 nəfərə yaşa görə, 76 nəfərə əlilliyə görə, 5 nəfərə ailə başçısını itirdiyinə görə pensiya təyin olunmuşdur. Əlilliyə görə pensiya təyin edilənlərin 1 nəfəri I qrup, 75 nəfəri isə II qrup əlillərdir.

Rayon Suvarma Sistemləri idarəsi və rayon Sukanal idarəsi tərəfindən 6 ay ərzində qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı xeyli işlər görmüşdür.

Sukanal idarəsi əsasən 1500 ailəlik yeni qəsəbədə müvəqqəti məskunlaşmış 2092 ailəyə, 10 təşkilata və 3 kommersiya obyektinə xidmət göstərir və demək olar ki, işin öhdəsindən gəlməyə çalışır.

Kəlbəcər Rayon Rabitə Qovşağı tərəfindən nəzərdə tutulmuş plan tapşırıq 102 faiz icra olunmuş, müavinətlərin vətəndaşlara vaxtında çatdırılması təmin edilmişdir.

45 saylı yol istismar idarəsi ilin birinci yarısında nəzərdə tutulan işləri vaxtında yerinə yetirməyə çalışmış, ona təhkim olunmuş avtomobil yollarında orta təmir və saxlanılma işlərini həyata keçirmişdir.

2015-ci il üçün perspektiv iş planına uyğun ilin birinci yarısında Kəlbəcər RİH başçısı yanında Şuranın 12 iclası keçirilmiş, 27 məsələ müzakirə olunmuşdur.

Rayon icra hakimiyyətinin gündəlik fəaliyyətində vətəndaşların qəbul edilməsi, onların müraciətlərinə baxılması məsələləri mühüm yer tutur. 2015-ci ilin birinci yarısında rayon icra hakimiyyətinə 314 müraciət, o cümlədən Prezident Administrasiyasından 100, Milli Məclisdən 2, Nazirlər Kabinetindən 66, nazirlik və baş idarələrdən 82, bilavasitə vətəndaşlardan 64 ərizə daxil olmuşdur. RİH başçısı tərəfindən yerlərdə keçirilən 22 səyyar qəbul görüşdə 2714 vətəndaş qəbul edilmişdir.

Çıxışının sonunda natiq Kəlbəcər rayon əhalisi və öz adından bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşımıza qoyduğu vəzifələri vaxtında və layiqincə yerinə yetirəcəyik.

**Zabit XƏLİLOV,**
**"Respublika".**